# Şah Mat Teatrı Akademik Milli Dram Teatrının səhnəsində çıxış edib




Müstəqil Şah Mat Teatrı yanvarın 29-da Azərbaycan Dövlət Akademik Milli Dram Teatrının Abbas Mirzə Şərifzadə səhnəsində dünya şöhrətli fransız yazıçısı Viktor Hüqonun "Ölüm məhbusunun son günü " əsərinin motivləri əsasında "Edama Məhkumun Son Günü" adlı tamaşasını təqdim edib.

Şah Mat Teatrının mətbuat katibi Turan Etibaroğlu bildirib ki, tamaşa Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin dəstəyi ilə göstərilib. Tanınmış yazıçı-şair Salam Sarvanın tərcüməsi əsasında hazırlanan tamaşanın quruluşçu rejissoru Mir Qabil Əkbərov, quruluşçu rəssamı Səbinə Abutalıbzadədir. Tamaşanın rejissoru Mir Qabil Əkbərov fransız dramaturqunun klassik romanına tamamilə fərqli aspektdən yanaşmağı bacarmış, maraqlı bir mono tamaşa ərsəyə gətirə bilmişdir. Psixoloji dram janrında hazırlanan tamaşada Anar Bulud çıxış edib.

Kaspi.- 2020.- 30 yanvar